● Ölməzliyə qovuşanlar

# Seymurun xatirəsi həmişə ehtiramla anılır

**Yurdumuzu erməni təcavüzündən qoruyarkən şəhid olan oğullarımızdan biri də Baxışov Seymur Qulamhüseyn oğludur. Seymur 12 iyul 1987-ci ildə Sumqayıt şəhərində hərbçi ailəsində anadan olub. 2002-ci ildə məktəbin 9-cu sinfini əla qiymətlərlə bitirərək təhsilini Sumqayit şəhərindəki Təfəkkür liseyində davam etdirib.**



Ordu sıralarına böyük həvəslə yollanan Seymur Baxışovun ən boyuk arzusu xususi təyinatlı qüvvələrin sıralarında xidmət etmək olub. Buna çatmaq üçün əsgəri xidmətinin 7-ci ayında öz istəyi ilə bu sahədə təşkil olunmuş kurslara qatılıb. Sınaqlardan uğurla keçib, tapşırıqarı müvəffəqiyyətlə yerinə yetirib. O, 2006-cı ildən kiçik gizir rutbəsi ilə bu qoşun növündə istehkamçı vəzifəsində xidmətə başlayıb.

Kiçik gizir Seymur Baxışov 2006-ci ildən 2016-cı ilə qədər müxtəlif vəzifələrdə xidmət edir. Seymur 2009-cu ildə Aynur adlı qızla ailə həyatı qurur. Bu evlilikdən bir oğul övladı dünyaya gəlir. Onun adını Amin qoyur.

Seymur Baxışov 2015-ci ildə təlim zamanı dizindən zədələnir. Buna görə də komandanlıq onu taborun təlim mərkəzinə rəis təyin edir. Lakin o yenidən döyüş qrupunun tərkibinə qayıtmaq arzusu ilə yaşayır. Məqsədinə çatmaq üçün məşq edir, zədəsini aradan qaldırmağa, sağlamlığını bərpa etməyə çalışır. Altı ay aramsız davam edən məşqlər müsbət nəticə verir. Elə həmin il yenidən idman normativləri verir. Tələb olunan təlim tapşırıqlarını yerinə yetirir. İstəyinə çataraq yenidən döyüş qrupuna qayıdır.

Erməni işğalçıları 2016-cı il aprel ayının 1-də atəşkəs rejimini pozub mövqelərimiz üzərinə hücuma keçəndə Seymurgilin bölüyünü də döyüşlərə cəlb edirlər. Onlar düşmənin Ağdərə və Tərtər rayonları istiqamətindən olan hücumlarının qarşısını alırlar. Həmişəki kimi Seymur yenə də öndə vuruşur, dəqiq atəş zərbələri ilə erməni işğalçılarını dayandırmağa çalışır. Yağılar isə işğalçılıq niyyətlərini həyata keçirmək üçün döyüşlərə böyük canlı qüvvə və zirehli texnika cəlb edirlər. Hərbçi yoldaşları kimi Seymur da tutduğu mövqedən bir addım da olsun geri çəkilmədən vuruşur.

Döyüşlərin ilk günü arxada qalır. Erməni qəsbkarlarının hücumları dayandırılır, canlı qüvvəsi və zirehli texnikası məhv edilir. Amma hələ də işğal təhlükəsi qalır. Silahı yerə qoymayan düşmən məkrli planlar hazırlayır. Döyüşçülər nəyin bahasına olursa olsun, yağıların işğalçılıq planlarının qarşısını almağa çalışırlar. Kiçik gizir Seymur Baxışov da bu amalla vuruşur. Təəssüflər olsun ki, Ağdərə istiqamətində gedən əməliyyatın qızğın anlarında Seymur ağır yaralanır. Onun həyat və döyüş yolu yarımçıq qalır. Müdafiəsinə qalxdığı torpaq uğrunda şəhid olur.

Kiçik gizir Seymur Baxışovun şəhid olduğu ərazi düşmən nəzarətində olduğuna görə onun meyitini yalnız aprelin 19-da çıxarmaq mümkün olur.

Baxışov Seymur Qulamhüseyn oğlu Aprel döyüşlərində göstərdiyi qəhrəmanlığa və igidliyə görə ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalla təltif edilir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.10.